# Bərpa-quruculuqda 2024-cü il spektri

*Bu il Qarabağda və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin geniş miqyasda həyata keçirilməsi ilə yadda qaldı. Müharibədən sonra dağıdılmış şəhər və kəndlərdə həyat yenidən canlanmağa başlayıb. Azərbaycan regionun sosial-iqtisadi inkişafını təmin etmək üçün mühüm layihələr həyata keçirir. Şuşa, Ağdam, Füzuli və digər bölgələrdə infrastrukturun bərpası sürətləndirildi, yeni yollar, elektrik xətləri və su təchizatı sistemləri qurulur. Əhalinin doğma torpaqlarına geri qayıtması üçün yaşayış binaları, məktəblər və xəstəxanalar tikilir. Eyni zamanda kənd təsərrüfatının inkişafı üçün münbit şərait yaradılır, müasir texnologiyalar tətbiq edilir. Qarabağda həyata keçirilən "yaşıl enerji" layihələri regionun ekoloji tarazlığını təmin etməyə yönəlib. Turizm potensialının inkişafı məqsədilə tarixi və mədəni abidələr bərpa edilir.*

## Şuşa

2024-cü ildə Şuşa şəhərində həm tarixi abidələrin bərpası, həm də yeni infrastruktur layihələri həyata keçirilir. Şuşada tikilən yeni yaşayış kompleksləri və binalar şəhərin müasir tələblərə cavab verməsini təmin edir. Bu çərçivədə şəhərin əsas infrastrukturunu gücləndirmək üçün mayın 10-da İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolun-



da görülən işlərlə tanış olub, birinci tunelin açılışında iştirak edib. Bu yol, Şuşa şəhəri ilə digər bölgələr arasındakı əlaqəni sürətləndirərək, regionun inkişafına mühüm töhfə verəcək.

Şuşa şəhərinin mədəni irsinin bərpası ön planda olmuşdur. 2024-cü ildə mədəniyyət və təhsil obyektlərinin bərpa işləri tamamlanmışdır. Həmçinin bu il Şuşa şəhəri "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Bu münasibətlə şəhərdə bir sıra mədəniyyət tədbirləri, layihələr və VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Bundan əlavə, 2024-cü il ərzində Şuşada İslam ölkələrinin rəssamlarının və fotoqraflarının sərgi və düşərgələri təşkil edilmişdir. Şuşa rayonunda 24 nömrəli ümumi orta məktəb fəaliyyətə başlamışdır.

Şəhərin mədəni həyatının canlandırılması üçün bu təhsil müəssisələrinin yenidən fəaliyyətə başlaması böyük əhəmiyyət kəsb edir. Eyni zamanda iyulun 5-də Prezident İlham Əliyev Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışında iştirak edib. Bu məscid Azərbaycan



mədəniyyətinin mühüm simvollardır və bu məscidin bərpası şəhərin turizm potensialını artıracaq. Şuşa Xalça Muzeyi və Mehmandarovların Evi kimi digər mədəni abidələr də bərpa edilib.

2024-cü il Şuşa şəhəri üçün bərpa və inkişafın yeni bir mərhələsi olub. Bu il ərzində tamamlanan layihələr şəhərin həm tarixini qorumağa, həm də müasir tələblərə uyğun inkişaf etməyə imkan yaratmışdır. Şuşa öz tarixi və mədəni irsini qoruyub saxlayaraq, eyni zamanda müasir şəhər infrastrukturunu inkişaf etdirərək, Azərbaycanın mədəniyyət mərkəzlərindən birinə çevriləcək.

## Füzuli

Füzuli şəhəri 2020-ci ildə işğaldan azad edildikdən sonra genişmiqyaslı quruculuq və yenidənqurma başlanılmışdır. Bu işlərin əsas məqsədi şəhəri müasir infrastruktura və yaşayış üçün əlverişli şəraitə malik olan bir məkana çevirməkdir. 2024-cü il bu baxımdan əhəmiyyətli bir mərhələ ol-



muşdur, bir çox əsas infrastruktur layihələri başa çatmış və sosial-iqtisadi inkişaf proqramları icra edilmişdir.

Füzuli şəhərinin yenidənqurma işləri Azərbaycan Prezidentinin təsdiqlədiyi Baş Plana əsasən həyata keçirilir. Baş Plana əsasən şəhərin mərkəzi hissəsində Zəfər Parkı, Memorial Kompleksi və İşğal Muzeyi inşa olunacaq. Bundan başqa, Füzuli rayonunda yerləşən Köndələnçay-1, Köndələnçay-2 və Aşağı Köndələnçay su anbarları 2024-cü ildə bərpa edilmişdir. Bu layihələr nəticəsində 6200 hektar əkin sahəsi suvarma suyu ilə təmin olunmuş, əkinçilik üçün əlverişli şərait yaradılmışdır. Bu layihələr regionun kənd təsərrüfatının inkişafına mühüm töhfə vermişdir.

2024-cü ildə Füzuli şəhərində çoxmənzilli yaşayış kompleksinin tikintisi davam etmişdir. Kompleksdə müasir şəraitə malik çoxmərtəbəli binalar, məktəb, uşaq bağçası, idman




və mədəniyyət obyektləri inşa olunur. Füzuli şəhərində avtomobil yolları yenidən qurulur, şəhəri regionla birləşdirən magistral yollar tikilir. 2024-cü ildə bu yolların 60 faizi istifadəyə verilmişdir. Elektrik, qaz və su təchizatı xətləri yenilənmişdir ki, bu da dayanıqlı infrastrukturun qurulmasına şərait yaradır. Eyni zamanda şəhərin mədəni irsini əks etdirən muzeylər və mədəniyyət mərkəzlərinin tikintisi davam etdirilir.

Həmçinin mayın 10-da Prezident İlham Əliyevin iştirakı ilə Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışı olub. Köndələnçay çayının məcrasında tikilmiş ümumi sututumu 3,9 milyon kubmetr (faydalı həcmi 3,6 milyon kubmetr), hündürlüyü 14 metr olan "Köndələnçay-1" su anbarı 1962-ci ildə istismara verilib. İşğaldan azad olunmuş ərazilərdə kompleks meliorasiya-irriqasiya tədbirləri çərçivəsində su anbarında müvafiq təmir-bərpa həyata keçirilib. 2024-cü ildə Aşağı Köndələnçay su anbarında təşkil olunan beynəlxalq idman tədbirləri, xüsusilə Gənclər və İdman Nazirliyi (GİN) ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) birgə təşkil etdiyi "Mingəçevir Reqatası-2024" beynəlxalq turniri diqqət çəkir.

## Laçın

Eyni zamanda bu il Laçında da bir çox infrastruktur layihələri tamamlanmış, bəziləri isə davam etməkdədir. Təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının ti-



kintisi davam edir və gələn il istifadəyə veriləcək. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Terminal binasının sahəsi 5000 kvadratmetr təşkil edir və saatda 200 sərnişinə xidmət göstərə bilir. Hava limanı Laçın şəhərinə 30 km, Şuşaya 70 km, Kəlbəcərə isə 60 km məsafədə yerləşir. Bu obyekt regionun turizm potensialının inkişafına və strateji əhəmiyyətinə mühüm töhfə verəcək.

2024-cü ildə Laçın rayonunda yeni yaşayış məntəqələrinin salınması işləri davam etdirilmişdir. Bu yaşayış məntəqələri müasir infrastrukturla təmin ediləcək və köçkünlərin doğma yurdlarına qayıdışını sürətləndirəcək.

Eyni zamanda Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulmuşdur. Bu məhəllə müasir standartlara uyğun olaraq inşa ediləcək və şəhərin demoqrafik inkişafına təkan verəcək. Şəhərdə təməli qoyulmuş İşğal və Zəfər Muzeyi Kompleksi isə Azərbaycanın tarixi qələbəsini və işğal dövründə yaşananları əks etdirəcək, gələcək nəsillərə və turistlərə məlumat verəcək.



2024-cü il Laçın rayonunun yenidənqurma və bərpa prosesində əlamətdar bir il olmuşdur. İnfrastruktur layihələrinin tamamlanması və yeni sosial obyektlərin təməlinin qoyulması regionun iqtisadi, sosial və mədəni inkişafına mühüm töhfə verəcək. Bu tədbirlər Laçının əvvəlki əzəmətini bərpa etməklə yanaşı, onun gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır.

## Ağdam

Bir zamanlar Qarabağın incisi olan bu əzəmətli şəhər indi Azərbaycanın dirçəliş tarixində əhəmiyyətli yer tutur. 30 il düşmən işğalı altında qalan bu qədim diyar 2020-ci ildə Vətən müharibəsində bir güllə atılmadan işğaldan azad edildi. İşğal dövründə xarabalığa çevrilən Ağdam indi yenidən do-



ğuş və iradənin simvoluna çevrilir.

Ağdam şəhəri bərpa edilir və gələn il şəhərə də ilk köç başlanacaq.

Ümumilikdə, bu il müxtəlif vaxtlarda Ağdam şəhərinə başda rəsmi şəxslər olmaqla, yerli və xarici bir sıra qonaqlar gəlib. Onlara ermənilərin Ağdamda törətdikləri faciələr və miras buraxdıqları mina fəlakəti barədə məlumatlar verilib.

Aprelin 17-də Prezident İlham Əliyevin 30 noyabr 2023-cü ildə imzaladığı Sərəncam əsasında, Bərdə-Ağdam avtomobil yolunun 40-cı kilometrini Əsgəran qəsəbəsi ilə birləşdirən (Ağdam şəhərinin dairəvi yolu) və uzunluğu 18 kilometr olan avtomobil yolunun inşasına başlanılıb. Aprelin 19-da isə Ağdərə-Ağdam avtomobil yolunun inşasına start verilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-mart göstəricilərinə əsasən, Qarabağda ən çox sənaye məhsulu Ağdam rayonunda (11,456) istehsal edilib.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam şəhərində olublar, Ağdam Cümə məscidinin bərpasından sonra açılışında iştirak edib, həmçinin Ağdam Konfrans Mərkəzi ilə tanış olublar. Həmçinin Şahbulaq qalasında da olub, daha sonra hər iki dövlət başçısı Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəb binasının təməlqoy-




ma mərasimində iştirak ediblər. Məktəbin inşası üçün 2,7 hektar ərazi ayrılıb. İki yerüstü və bir yeraltı mərtəbədən ibarət olacaq binada 22 kabinet yaradılacaq, həmçinin idman və akt zalları, kitabxana, laboratoriyalar və digər təsisatlar istifadəyə veriləcək.

Prezident İlham Əliyev mayın 28-də Ağdam rayonunun Tağıbəyli, Güllücə, Nəmirli və Şotlanlı kəndlərinin təməlini qoyub. Birinci mərhələdə bu kəndlərə ümumilikdə 605 ailə köçürüləcək. Tağıbəyli kəndində 255,31 hektar ərazidə 885 ev, Güllücə kəndində 388,44 hektar ərazidə 1042 ev, Nəmirli kəndində 211 hektar ərazidə 759 ev, Şotlanlı kəndində isə 197,4 hektar ərazidə 750 ev inşa ediləcək. Hər bir kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzləri, idman kompleksləri, inzibati binalar və parklar yaradılacaq. Eyni zamanda işğal dövründə ermənilərin yaratdığı mühəndis qurğularının bir hissəsi muzey kimi qorunacaq.

Prezident İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam Sənaye Parkında müxtəlif təyinatlı istehsal zavodlarının açılışında iştirak ediblər. Daha sonra Ağdamın Eyvazxanbəyli kəndinin, "İmarət" stadionunun təməlqoyma mərasimində və "Aghdam City Hotel"ın açılışında iştirak ediblər. Həmçinin Kəngərli və Xıdırlı kəndlərində bərpa işləri ilə tanış olublar.

2 oktyabrda Dövlət Su Ehtiyatları Agentliyi Ağdamda su təsərrüfatı sahəsində irimiqyaslı işlərə başlayıb. Ağdam şəhərinin su təchizatı layihəsi çərçivəsində 2 ədəd 10,000 kubmetrlik və 2 ədəd 7,500 kubmetrlik su anbarının tikintisi davam edir. Qaraqayadan gələn 9 kilometrlik magistral xəttin 6.5 kilometri inşa edilib. Kanalizasiya kollektorunun 6 kilometrlik xəttinin 1.8 kilometri çəkilib və iki subartezian quyusundan birinin tikintisinə başlanılıb.

## Kəlbəcər

Azərbaycanın işğaldan azad edilən torpaqlarında yeni həyatın başlanğıcı şanlı qələbəmizdən sonra sürətlə özünü göstərdi. Qədim torpaqlarımıza həyatın yenidən qayıtması ilə yanaşı, Prezident İlham Əliyev bu rayonlara davamlı səfərlər edərək vəziyyətə birbaşa nəzarət edir. Hədəf bölgənin iqtisadi potensialını artırmaq, yerli və xarici investisiyaları bərpa və quruculuğa cəlb etməkdir. Bu rayonlar arasında xüsusi önəm daşıyan Kəlbəcər tarixi, coğrafi mövqeyi və zəngin təbii ehtiyatları ilə fərqlənir. Həm də faydalı qazıntılarla, o cümlədən qızıl, gümüş, mis və civə yataqları ilə zəngin olub, həmçinin geniş inşaat materialları və əlvan daş ehtiyatlarına malikdir. Sovet dövründə burada fəaliyyət göstərən sanatoriyalar da rayonu iqtisadi cəhətdən daha da önəmli etmişdi.

İlin əvvəlindən etibarən coğrafi quruluşuna görə ən çətin relyefə malik Kəlbəcərdə yenidənqurma sürətlə davam edir. Şəhər ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və İdarəetmə Mərkəzinin, İstisu ərazisində isə 110/35 kV-luq yarımstansiyanın inşası və 35 kV-luq xətlərin çəkilişi intensiv şəkildə həyata keçirilir. Ağqaya, Qamışlı və Mərcimək kəndlərində quruculuq davam edir.



İyulun 1-də Prezident İlham Əliyev tərəfindən imzalanan Sərəncama əsasən Bəşir Qüdrət oğlu Hacıyev Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib. İyulun 10-da isə "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılıb. Eyni zamanda "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" və bu qurumun Müşahidə Şurasının tərkibi təsdiq edilib.

Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda Tərtər çayı üzərində yerləşən "Azərenerji" ASC-nin 22,5 MVt gücündəki "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışında iştirak ediblər. Eyni gün Prezident və birinci xanım Xudavəng monastır kompleksində olub. Prezident İlham Əliyev, həmçinin Toğanalı-Kəlbəcər-İstisu yolundakı 4-cü tuneldə və yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış olub. Bu, yol infrastrukturunun gücləndirilməsi ilə bölgənin iqtisadi və sosial əlaqələrinin artırılması istiqamətində atılan mühüm addımlardan biridir.

Prezident İlham Əliyev Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub və burada 524 ailəlik yeni yaşayış kompleksinin tikintisi ilə tanış olub. Dövlət başçısı,



həmçinin Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılacaq modul tipli məktəbin layihəsi ilə tanış olub. Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyan Prezident İstisu Mineral Su Zavodunun açılışında da iştirak edib. Bu isə həm bölgənin turizm potensialını gücləndirəcək, həm də yerli iş yerlərinin yaradılmasına kömək edəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, həmçinin Kəlbəcərdə "Zar" KSES-in açılışında iştirak edib. Göygöl rayonunda isə "Toğanalı" KSES-in açılışı olub. Sentyabrın 2-də Prezident və birinci xanım İstisu Müalicə-İstirahət Kompleksində aparılan tikinti ilə tanış olublar. Həmçinin "Azərişıq" ASC-nin 110/35/10 kV-luq "İstisu" yarımstansiyasının açılışı da həmin günə təsadüf edib.

Prezident İlham Əliyev Kəlbəcər rayonunun İstisu qəsəbəsinin təməlini qoyub və burada Kəlbəcər sakinləri ilə görüşüb.

Kəlbəcərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və infrastruktur layihələri regionun iqtisadi və sosial inkişafını sürətləndirəcək, həmçinin sakinlərin həyat şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bu səfərləri Kəlbəcərin bərpası və inkişafı istiqamətindəki irəliləyişləri nümayiş etdirir. Bu layihələr, həmçinin ölkəmizin ümumi inkişaf strategiyasına uyğun olaraq, müasir infrastruktura malik, dayanıqlı və rifah səviyyəsi yüksək bir Kəlbəcərin qurulmasına istiqamətlənib.

## Cəbrayıl

Azərbaycan Ordusunun sentyabrın 27-də başlatdığı əks-hücum əməliyyatları nəticəsində Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar, Mehdili və digər kəndləri işğaldan azad edilib, oktyabrın 4-də isə Cəbrayıl şəhəri də erməni işğalından təmizlənib. Bu qələbə müharibənin gedişatına, həm də Azərbaycanın milli birlik və qətiyyətini dünyaya nümayiş etdirdi. Cəbrayılın azad edilməsi ilə ərazidə başlayan bərpa, "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması, sənaye parkları və yeni infrastruktur layihələri bölgənin sosial və iqtisadi həyatına yeni təkan verir. Bu layihələr Qarabağın dirçəldilməsi və regional iqtisadi əlaqələrin inkişafı baxımından strateji əhəmiyyət kəsb edir.



İşğaldan azad olunan Cəbrayıl rayonunda bərpa və quruculuq sürətlə davam edir. Prezident İlham Əliyev mayın 18-də Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin təməlini qoyub. Cəbrayıl rayonunun birinci mərhələdə bu kəndlərə köçürüləcək sakinlər üçün fərdi evlər və bir neçə mərtəbəli binalar inşa ediləcək. Həmçinin hər kənddə inzibati binalar, məktəblər, uşaq bağçaları, mədəniyyət və idman mərkəzləri, ticarət obyektləri tikiləcək. Bu layihələr "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, əhalinin sosial rifahını yaxşılaşdırmaq və məşğulluğu təmin etmək məqsədi daşıyır.

Türk Dövlətləri Təşkilatına bəzi üzv ölkələrin liderləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfərlər etmişdir. Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentləri Ağdam və Füzuliyə səfərlər edərək bu bölgələrin bərpasına dəstək olduqlarını bir daha vurğuladılar. Özbəkistan və Qazaxıstanın maliyyə dəstəyi ilə azad edilmiş ərazilərdə məktəb və incəsənət mərkəzləri fəaliyyətə başlamışdır. Cəbrayıl rayonunun Soltanlı kəndində isə Macarıstanın maliyyə dəstəyi ilə məktəb inşa ediləcək. Bu addımlar Türk dünyasının birliyini nümayiş etdirir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunda bir sıra mühüm təməlqoyma mərasimlərində iştirak edib. Onlar "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlini qoymuş, həmçinin müxtəlif sosial obyektlərin tikintisi ilə tanış olmuşlar. Eyni zamanda Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına məktəbin açılışı və "Azərsun Holding" MMC-nin alkoqolsuz içki istehsalı kompleksinin təməlqoyma mərasimi həyata keçirilmişdir. Prezident İlham Əliyev, həmçinin Cəbrayıl sakinləri ilə görüşərək yeni inşa olunan yaşayış kompleksinə köçənlərə mənzillərin açarlarını təqdim etmişdir.



Noyabrın 12-də COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə Şəfəq Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib ki, bu layihə Azərbaycanın enerji sektorunun inkişafına mühüm töhfə verəcək.

Bütün bu addımlar Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və inkişaf prosesinin sürətləndirildiyini, regionun iqtisadi və sosial rifahının yüksəldilməsini məqsəd qoyan strateji yanaşmaların həyata keçirildiyini göstərir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**